**1.** Ölçüləri 3 sm, 5 sm və 8 sm olan düzbucaqlı paralelepipedin tam səthinin sahəsini hesablayın.

A) 79 sm² B) 170 sm² C) 237 sm² D) 85 sm² E) 158 sm²

*(27 aprel 2025, DİM)*

**2.** Kubun tilini 1 vahid artırsaq, onun həcmi 19 vahid artar. Kubun tilini tapın.

A) 4 B) 3 C) 7 D) 6 E) 2

*(20 aprel 2025, DİM)*

**3.** Kubun tilini 2 dəfə azaltdıqda həcmi neçə dəfə azalar?

A) 2 dəfə B) 8 dəfə C) 12 dəfə D) 6 dəfə E) 4 dəfə

*(13 aprel 2025, DİM)*

**4.** Kubun tilini 2 dəfə artırdıqda həcmi 56 $sm^3$ artar. Bu kubun tam səthinin sahəsini tapın.

A) 24 $sm^2$ B) 28 $sm^2$ C) 48 $sm^2$ D) 40 $sm^2$ E) 20 $sm^2$

*(5 may 2024, DİM)*

**5.** Düzbucaqlı paralelepipedin üç müxtəlif üzünün sahəsi 2, 5 və 10 –dur. Paralelepipedin tam səthinin sahəsini tapın.

*(21 aprel 2024, DİM)*

**6.** Ölçüləri 6, 8 və 10 olan düzbucaqlı paralelepipedin həcmini tapın.

*(7 aprel 2024, DİM)*

**7.** Fiquru qırıq xətlər üzrə qatlasaq, düzbucaqlı paralelepiped formalı qutu alınar. Bu qutunun həcmini tapın.




A) 26 $sm^3$ B) 30 $sm^3$ C) 80 $sm^3$ D) 36 $sm^3$ E) 60 $sm^3$

*(17 mart 2024, DİM)*

**8.** Düzbucaqlı paralelepipedin oturacağının tərəflərini 6 dəfə artırıb, hündürlüyünü 4 dəfə azaltsaq həcmi necə dəyişər?

A) 8 dəfə artar B) 8 dəfə azalar C) 9 dəfə artar D) 9 dəfə azalar E) 6 dəfə artar

*(30 aprel 2023, DİM)*

**9.** Düzbucaqlı paralelepipedin xətti ölçüləri 25; 8 və 4 olarsa, bu paralelepipedin həcmini tapın.

*(9 aprel 2023, DİM)*

**10.** Düzbucaqlı paralelepipedin xətti ölçüləri $3\ sm$, $\frac{3}{2}\ sm$, $\frac{3}{5}\ sm$ olarsa, paralelepipedin həcmini tapın.

A) 1,7 B) 3,8 C) 5,5
D) 4,6 E) 2,7

*(1 may 2022, DİM)*

**11.** Bir üzünün sahəsi $64\ sm^2$ olan kubun daxilinə neçə ədəd tili $4\ sm$ olan kub yerləşdirmək olar?

A) 16 B) 7 C) 12
D) 8 E) 5

*(30 aprel 2022, DİM)*

**12.** Kubun yan səthinin sahəsi 40 $sm^2$ olarsa, onun tam səthinin sahəsini tapın.

A) 40 $sm^2$ B) 20 $sm^2$ C) 60 $sm^2$
D) 100 $sm^2$ E) 80 $sm^2$

*(24 aprel 2022, DİM)*

**13.** Həcmi 60 $sm^3$ olan paralelepipedin oturacağının tərəflərindən biri 5 sm və hündürlüyü 6 sm-dir. Bu paralelepipedin tam səthinin sahəsini tapın.

A) 502 B) 104 C) 96
D) 114 E) 94

*(23 aprel 2022, DİM)*

**14.** Tam səthinin sahəsi $24\ sm^2$ olan kubun həcmini tapın.

A) $12\ sm^3$ B) $4\ sm^3$ C) $6\ sm^3$
D) $8\ sm^3$ E) $2\ sm^3$

*(17 aprel 2022, DİM)*

**15.** Düzbucaqlı paralelepipedin oturacaqlarının tərəflərini 6 dəfə azaldıb, hündürlüyünü 3 dəfə artırsaq, həcmi necə dəyişər?

A) 36 dəfə azalar B) 36 dəfə artar
C) 9 dəfə azalar D) 12 dəfə artar
E) 12 dəfə azalar.

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1E 2E 3B 4A 5 (34) 6 (480)

7E 8C 9 (800) 10E 11D 12C

13B 14D 15E